“Təsdiq edilmişdir”
“Bakı Fond Birjası” QSC-nin İdarə Heyəti
Əmr № ___
“____”___________2022-ci il
İdarə Heyətinin sədri v.i.e.

_______________ E. Abdullayev

# REPO PREDMETİNİN MÜƏYYƏN OLUNMASI VƏ REPO ƏMƏLİYYATLARI ÜZRƏ TƏMİNAT ƏMSALININ HESABLANMASI VƏ AÇIQLANMASI

# Q A Y D A L A R I

**Bakı – 2022**

## 1. Ümumi müddəalar

1.1. Bu qaydalar "Bakı Fond Birjası" QSC-də (bundan sonra - Birja) repo baza predmeti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Mərkəzi Bankı, İpoteka və Kredit Zəmanət Fondu və digər dövlət təminatı ilə buraxılan qiymətli kağızlar istisna olmaqla, digər emitentlər tərəfindən buraxılan, repo predmeti hesab edilən korporativ qiymətli kağızlar üçün repo əməliyyatı üzrə təminat əmsalının hesablanması, müəyyən olunması və açıqlanması qaydalarını müəyyən edir.

1.2. Bu qaydalar "Bakı Fond Birjasında Qiymətli Kağızlar və Törəmə Maliyyə Alətləri üzrə Ticarətin Təşkili və Keçirilməsi Qaydaları"-na və "Repo Baş Razılaşması"-na uyğun hazırlanmışdır.

## 2. Təminat əmsalının hesablanması və açıqlanması forması

2.1. Repo təminat əmsalının hesablanması və açıqlanması Birja tərəfindən həyata keçirilir.

2.2 Birja repo predmetləri üzrə repo təminat əmsalının müəyyən edilməsini bu qaydaların Repo təminat əmsalının hesablanması və müəyyən edilməsi cədvəlinə (Əlavə №1) uyğun hesablayır.

2.4. Birja bu qaydaların tələblərinə cavab verən qiymətli kağızlar üzrə repo predmeti üzrə hesablanmış təminat əmsalını Repo predmetləri üzrə hesablanmış təminat əmsalının təqdim olunma cədvəlində (Əlavə №2) göstərilmiş formada öz veb səhifəsi vasitəsi ilə açıqlayır.

## 3. Yekun müddəalar.

3.1. Bu qaydalar, təsdiq edildiyi tarixdən qüvvəyə minir.

“Repo predmetinin müəyyən olunması və repo əməliyyatları üzrə
təminat əmsalının hesablanması və açıqlanması Qaydaları”na

**Əlavə №1**

## Repo təminat əmsalının hesablanması və müəyyən edilməsi cədvəli

| Qiymətli kağızın növü | Qiymətli kağızın qalıq tədavül müddəti (QTM) | Repo təminat əmsalı | | | |
|---|---|---|---|---|---|
| | | Premium bazar | | Standard bazar | |
| | | Marketmeykeri olan | Marketmeykeri olmayan | Marketmeykeri olan | Marketmeykeri olmayan |
| Korporativ istiqraz | QTM ≤ 1 il | 5% | 7% | 8% | 10% |
| | 1 il < QTM ≤ 3 il | 6% | 8% | 9% | 11% |
| | 3 il < QTM ≤ 5 il | 7.5% | 9.5% | 10.5% | 12.5% |
| | 5 il < QTM | 10% | 12% | 13% | 15% |
| Səhm | - | 15% | 20% | 25% | 30% |

“Repo predmetinin müəyyən olunması və repo əməliyyatları üzrə
təminat əmsalının hesablanması və açıqlanması Qaydaları”na

**Əlavə №2**

**Repo predmetləri üzrə hesablanmış təminat əmsalının təqdim olunma forması**

| **№** | **Emitent** | **Dövlət Qeydiyyat nömrəsi** | **Qiymətli kağızın növü** | **Təminat həcmi (təminat əmsalı, faiz ilə)** |
|---|---|---|---|---|
| 1 | | | | |